*6 fevral 2023-cü il qardaş ölkə Türkiyə üçün faciə kimi yadda qaldı. Gecə saatlarında Kahramanmaraş mərkəz olmaqla baş verən güclü zəlzələ təkcə həmin bölgəni deyil, ümumilikdə 10 vilayəti sarsıtdı. 7,7 bal gücündə yeraltı təkanlar saniyələr içində minlərlə insanın həyatını alt-üst etdi. Elazığ, Şanlıurfa, Adana, Hatay, Diyarbəkir, İsgəndərun və digər şəhərlərdə minlərlə yaşayış binası yerlə-yeksan oldu, küçələr dağıntılarla doldu. Rəsmi rəqəmlərə görə, Türkiyədə 53 mindən çox insan həlak oldu, on minlərlə insan isə yaralandı. Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan bu zəlzələnin 1939-cu ildə Ərzincanda baş vermiş zəlzələdən sonra ən güclü zəlzələ olduğunu bildirmişdi. Zəlzələ nəticəsində ümumilikdə 6444 bina dağılmışdı.*



# Çətin anlarda çiyin-çiyinə





Fəlakət anları millətlərin və dövlətlərin sınaq məqamıdır. 6 fevral zəlzələsi baş verən andan etibarən Azərbaycan qardaş Türkiyənin yanında olduğunu bir daha sübut etdi. Bu, sadəcə siyasi bəyanatlar və diplomatik jestlər deyil, həqiqi qardaşlıq hissinin, dərin bağlılığın ifadəsi idi. Azərbaycan Prezidenti İlham Əliyev fevralın 8-də Türkiyənin ölkəmizdəki səfirliyində olub, qardaş ölkədə baş vermiş zəlzələ nəticəsində çox sayda insanın həlak olması ilə əlaqədar başsağlığı verib. Dövlətimizin başçısı Azərbaycanın hər zaman olduğu kimi, zəlzələdən sonra ilk dəqiqələrdən, ilk saatlardan qardaş Türkiyənin yanında olduğunu vurğulayıb: "Azərbaycan öz dəstəyini, öz həmrəyliyini həmişə olduğu kimi nümayiş etdirir. Əgər bu acı faciənin fəsadlarının aradan qaldırılmasına bir balaca kömək edə bilmişiksə, bunu özümüz üçün şərəf bilirik".

Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan dəstəyə görə Azərbaycana təşəkkür edərək dedi: "Biz necə Qarabağ müharibəsində qardaşlarımızın yanında olduqsa, Türkiyədəki fəlakətdə də İlham qardaşım bütün komandası ilə bizim yanımızda yer aldı". Qardaş ölkənin lideri aprelin 25-də Azərbaycan FHN-in xilasedici giziri Elvin İsgəndərovu, Müdafiə Nazirliyi Tibb Xidmətinin polkovniki Niyamədin Ağamalıyevi və zəlzələdən sonra Türkiyəyə gedən gənc könüllülərdən Ayxan Allahverdiyevi "Yüksək Fədakarlıq Ordeni və Medalı" ilə təltif etdi. Bu, rəsmi Ankara tərəfindən qardaş dəstəyini qiymətləndirmənin təzahürü idi.

Ölkəmiz bu faciədə ilk köməyə çatan dövlətlərdən oldu. Dövlət başçısının tapşırığı ilə zəlzələ bölgəsinə təbii fəlakətin nəticələrinin aradan qaldırılması üçün Fövqəladə Hallar Nazirliyinin 420 nəfərlik çevik xilasetmə qüvvəsi yola düşdü. Bu xilasedicilər Kahramanmaraşda və zəlzələdən zərər çəkmiş digər bölgələrdə fədakarlıqla çalışdılar. Türkiyə mediası həmin günlərdə Azərbaycan xilasedicilərinin fəaliyyətinə geniş yer ayırdı. Azərbaycan açıq şəkildə bildirdi ki, yardım son ana qədər davam edəcək. Axtarış-xilasetmə işləri fasiləsiz rejimdə, üç növbədə həyata keçirildi. Bu işlərə 3 xüsusi avadanlıqla təchiz olunmuş avtomobil, istiliyə həssas axtarış cihazları və 8 xüsusi təlim keçmiş xilasetmə iti də cəlb olundu. Bundan əlavə, Azərbaycan komandası Kahramanmaraşda 2 səhra xəstəxanası qurdu. Burada çalışan 41 həkim və tibb işçisi zəlzələdən zərər çəkmiş insanlara tibbi yardım göstərdi. Həmçinin psixoloqlar hadisənin təsirinə məruz qalan insanlara psixoloji dəstək verdilər. Xəstəxanalarda, o cümlədən cərrahiyyə bölməsində və laboratoriyalarda təxminən 2 500 nəfər müalicə aldı. Pediatrlar uşaqlara xüsusi qayğı göstərdilər.

Azərbaycan heyəti Kahramanmaraş və ətraf rayonlarda 10 çadır şəhərciyi quraraq zəlzələdən zərərçəkənləri sığınacaqla təmin etdi. Həmçinin bölgədə səhra mətbəxi təşkil edildi və hər gün 1000 nəfərə isti yemək verildi. Humanitar yardımlar çərçivəsində Azərbaycandan 10 təyyarə və yük maşınları vasitəsilə adyal, qızdırıcı və digər zəruri ləvazimatlar Türkiyəyə göndərildi.

Birinci vitse-prezident Mehriban xanım Əliyeva da fevralın 6-da Türkiyədə baş vermiş zəlzələ ilə əlaqədar rəsmi "Instagram" səhifəsində paylaşım etdi. Uca Tanrıdan bütün Türkiyə xalqına güc və səbir dilədi.

Eyni zamanda çoxsaylı insan tələfatına səbəb olmuş zəlzələ qurbanlarına dəstək məqsədilə xeyriyyəçilik fəaliyyəti ilə dünyada tanınan Azərbaycanın birinci xanımı, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevanın göstərişinə əsasən Fond tərəfindən qardaş ölkəyə humanitar yardım göstərildi. Faciədən zərər çəkmiş şəxslər üçün müxtəlif dərman preparatları, oksigen maskaları, filtrli sistemlər, sarğı materialları, onurğa taxtaları, ilkin yardım boyunluqları, xərək daxil olmaqla tibbi ləvazimatlar və avadanlıqlar, eləcə də isti geyimlərlə humanitar yardım göndərildi.

6 fevral zəlzələsindən sonra göstərdiyi kömək və dəstəyə görə Azərbaycana təşəkkür etmək məqsədilə Türkiyənin Kahramanmaraş şəhərində Azərbaycan məhəlləsi inşa edilməyə başlandı. 320 hektarda qurulan məhəllənin 100 milyon dollarlıq hissəsi Azərbaycan tərəfindən qarşılandı. Kahramanmaraş Böyükşəhir Bələdiyyəsi sədri Hayrettin Güngör bildirib ki, Azərbaycana təşəkkür etmək üçün yaşayış evlərinin tikiləcəyi əraziyə "Azərbaycan məhəlləsi" adı verilib. Məhəllədə ilkin olaraq 2023-cü il aprelin 29-da Heydər Əliyev adına ibtidai məktəbin təməli qoyulub. Sözügedən məktəbin açılışı ötən il sentyabr ayında baş tutdu. Müasir məktəb binasının tikintisi zamanı sağlamlıq imkanları məhdud uşaqlar da nəzərə alınıb. Məktəbdə, həmçinin idman zalı, kitabxana, məscid və zərurət yarandıqda sığınacaq kimi istifadə edilə bilən yer var.

Azərbaycan xalqı hər zaman qardaş Türkiyənin yanında olacaq, həm maddi, həm də mənəvi dəstəyini əsirgəməyəcək.

**Röya RÜSTƏMLİ,**
**"Respublika".**

Respublika .- 2025.- 6 fevral (№26).- S.6.